**SAMIR CƏFƏROV**
*AMEA- Fəlsəfə,Sosialogiya və Hüquq İnstitutunun dissertantı GDU nun müəllimi*

# QLOBALLAŞMA ANLAYIŞI VƏ MAHIYYƏTI

Bəşər tarixi III minilliyə çox təlatümlü, keşməkeşli, mürəkkəb və ziddiyyətli «qloballaşma» adı ilə daxil oldu. Son on ildə qloballaşma mövzusu siyasi nəzəri elmdə daha geniş və daha ardıcıl müzakirə və tədqiq olunan ən aktual məsələdir. Siyasi elmdə keçən əsrin 80-ci illərindən daha geniş vüsət almağa başlayan «qloballaşma» anlayışı müasir dövrdə həm nəzəri, həm də praktiki şüarda dərin kök salaraq, bu elmin mərkəzi tədqiqat sahəsinə çevrilmişdir. Nəzəri konseptual baxımdan XX əsrdə formalaşan qloballaşma anlayışı tarixi-siyasi baxımdan dərin köklərə malik olsa da, onunla bağlı dəqiq və konkret formalaşmış bir fikir yoxdur. Ümumiyyətlə, politologiyada elə anlayışlar var ki, bu günümüzə qədər onların dəqiq tərifini vermək mümkün olmamışdır. Bu anlayışlar mübahisə yarandığı vaxtdan mübahisə doğurmuş və mübahisə doğurmaqda davam edir. Problem doğuran bu anlayışlar müasir siyasi bilik və təcrübə üçün təməl rolu oynamaqda davam edir. Bu siyasi-nəzəri anlayışlar haqqında bütün siyasi ideologiyaların nümayəndələri diskussiya aparırlar. Qloballaşma anlayışı və onun doğurduğu nəzəri və praktiki məsələlər də bu qəbildəndir. BMT-nin keçmiş katibi K.Anan yazır: «Milyonlarla vətəndaş öz şəxsi təcrübəsindən əmindir ki, qloballaşma taleyin hədiyyəsi olmayıb, onların maddi rifahını və yaxud ilkin həyat tərzini parçalayan dağıdıcı qüvvədir» (*Известия qəzeti.1998, 22 avqust*). Qloballaşmanın əlaqələndirici, bağlayıcı, birləşdirici xüsusiyyətini önə çəkən «Roma klubu» nun prezidenti A.Peççei yazır: «Qloballaşma konsepsiyası şəxsiyyət, bəşəriyyət və dünya sisteminin bütün qarşılıqlı fəaliyyətdə olan element və amillərini bütöv şəkildə əlaqələndirir, bu günü və gələcəyi birləşdirir, fəaliyyət və son nəticələri ümumiləşdirir.

XX əsrin sonlarında baş verən proseslər... insanlardan gələcəyə nəzər salmağa son qoymağı, onu «çağırmağı» tələb edir. Ona görə də insan bu gələcəyi necə görmək istədiyinə qərar verməli və öz fəaliyyətini buna uyğun olaraq tənzimləməli və reqlamentləşdirməlidir. (1 səh 185).

Bu anlayışın geniş müzakirəsi geniş rezonans doğuraraq, nümayəndələri hiperqlobalist, skeptik və transformist adlandırılan 3 məktəbin yaranmasına səbəb oldu. Bu məktəblərdən hər biri öz qiymətini verməklə qloballaşmanı izah etməyə çalışırdı. Məsələn, Omaya K. kimi hiperqlobalist qloballaşmanı yeni era kimi qiymətləndirərək, insanların dünya bazarında hökmranlıq edən qaydalardan asılı vəziyyətə düşməsini onun fərqləndirici xüsusiyyəti sayır. Skeptik P'Herst və C.Tompson isə əksinə, sübut etməyə çalışırlar ki, qloballaşma arxasında dünya təsərrüfatı çərçivəsində daha çox milli hökumətlərin güclü olduğu 3 əsas regional blokun gizləndiyi mifdir. C.Rozenan və E.Giddenə kimi transformistlərin fikrincə, dövlət və cəmiyyət yer kürəsinin bütün guşələrində dərin dəyişiklikləri hiss edərək, daxilən daha əlaqəli, lakin dəyişən dünyaya uyğunlaşmağa çalışır. (2 *səh- 2*)

«Qloballaşma» termini XX əsrdə meydana gəlmişdir. İngilis dilində «qloballaşma» termini müasir anlamında XX əsrin 60-cı illərindən başlayaraq işlədilir. Giddens 1998-ci ildə qeyd edirdi ki, «qloballaşma» sözü alimlər tərəfindən demək olar ki, istifadə edilmirdi. Yalnız son zamanlardan başlayaraq, anlayış bu cür karyera qazanmışdır: Əvvəllər demək olar ki, heç bir yerdə rast gəlmək olmazdı, indisə, hər yerdə rast gəlmək olur.

Şaxray qeyd edir ki, XX əsrin 90-cı illərində meydana gələn «qloballaşma» termini bu günkü izahından fərqli təsir edilirdi. Qloballaşma dedikdə, texniki nailiyyətlər və qeyri tənzimlənmə ilə müəyyən edilən maliyyə bazarlarındakı investisiyalarla şərtlənən beynəlxalq miqyaslı proses başa düşülürdü (3 *səh-6*).

«Qloballaşma» anlayışının etimoloji mənasının əsasında ingilis sözü olan globe – yer kürəsi – durur. Bu cür məna qloballaşma anlayışını bütövlük, vahidlik, ümumdünyəvilik mənalarında işlədilməsi və təhlil olunmasına heç bir problem yaratmır. Qloballaşmanın etimoloji mənasının təhlili tədqiqatçılar arasında əsrin elmi mübahisələrə səbəb olmasa da, onun bir termin və ya anlayış kimi yaranması, elmi dövriyyəyə gətirilməsi və konseptual əsasları haqqında ciddi fikir ayrılıqları mövcuddur. Bu anlayışı tarixi siyasi aspektdən müxtəlif dövrlərə aid etsələr də, bir fenomen kimi qloballaşma XX əsrin 60-70-ci illərində meydana gəlmişdir. Məhz ona da, XX əsri qloballaşma əsri kimi səciyyələndirilir.

Bir sıra tədqiqatçılar bu anlayışın ilk dəfə XX əsrin 60-70-ci illərində fransız və amerikan müəlliflərinin əsərlərində meydana gəldiyini və bu gün dünyanın əsas dillərinə daxil olduğunu söyləyirlər. Rusiyalı tədqiqatçı M.Delyagin bu anlayışın konkret olaraq, 1967-ci ildə fransız alimi tərəfindən həmin dövrün beynəlxalq inteqrasiyasının keyfiyyət ... fərqləndirmək məqsədilə işlədərək elmi dövriyyəyə gətirildiyini söyləyir (4 *səh-48*)

1987-ci ilə qədər Konqresin Vaşinqtondakı kitabxanasında «qloballaşma» anlayışının işlədildiyi heç bir kitabda rast gəlinməmişdir. 1994-cü ildə isə həmin kitabxananın kataloqunda bunun sayı 34 nəşr idi.

Qloballaşma anlayışının elmi akademik status qazanmasını ingilis alimi Roland Robertsonun adı ilə bağlayırdılar. O, 1983-cü ildə ilk dəfə «qloballaşma» terminini işlətmiş, 1985-ci ildə isə onun geniş tərifini vermişdir. Geniş tədqiqatlar nəticəsində R.Robertson 1992-ci ildə öz nəzəri konsepsiyasının əsaslarını bəyan etdi (5 *səh-41*).

Digər tədqiqatçılar «qloballaşma» terminin meydana gəlməsini amerikalı tədqiqatçı T.Levitin adı ilə bağlayırlar. O, 1983-cü ildə «Harvard biznes revyu» jurnalında dərc olunmuş məqaləsində böyük çoxmillətli korporasiyalar tərəfindən yaranmış bazarın birləşməsi prosesini qeyd etmişdir.

Bu anlayışın ilk dəfə «tarixi prosesi sosial münasibətlərin qloballaşmasının güclənməsi kimi başa düşmək və onu izah verməyə çağıran amerikan sosioloqu C.Maklin tərəfindən konseptual nəzəriyyələrin mərkəzinə gətirildiyini söyləyən tədqiqatçılar da vardır (6 *səh-35*).

Bu anlayışın elmi-nəzəri tədqiqatların obyektinə çevrilməsində 30 ildən artıq vaxt keçməsinə baxmayaraq, adına qloballaşma əsri deyilən XXI əsrdə onun hamı tərəfindən qəbul edilən ümumi elmi tərifi mövcud deyil. Bu anlayışın çoxsaylı təriflərə malik olması «qlobalistika»da güclü terminoloji anarxiyanın mövcudluğundan xəbər verir. Bu cür terminoloji anarxiyanın səbəblərindən biri kimi bu anlayışa tərif verməyə çalışan müəlliflərin özünü göstərmək olar. Çünki hər bir müəllif tərif verərkən öz ideoloji yönümünü və nəzəri mənsubluğunu bu tərifə daxil edərək anlayışa şəxsi «məna» gətirir. Ona görə də, Robertson və Hondkerə görə, «qloballaşma haqqında yazmaq üçün edilən hər bir ciddi cəhd özündə bu haqda edilən disskusiyalar arasında oxşar və fərqli cəhətlərin təhlilini əks etdirməlidir» (7 *səh-128*).

Z.Bauman belə hesab edir ki, qloballaşmanın kateqorial-anlayış aparatı formalaşmamışdır. Tədqiqatçıların istifadəsində olan terminlər isə nəinki qeyri-müəyyəndir, həmçinin tədqiqatlar genişləndikcə onların məzmunu şəffaflaşır, se-

çilməz olur. Bu cür qeyri-müəyyənliyin səbəbinin özü də fakt olaraq qalır... Bütün hallarda qloballaşma anlayışının izahlarındakı qeyri müəyyənlik bu gün də müzakirələrin mövzusu olaraq qalır. Əsas suallar isə bu cürdür: Qloballaşma və ya qloballıq «tək» haldır, yoxsa «cəmdir», qloballaşma prosesi bir, yoxsa subyektiv və obyektiv kimi ikili məntiqə əsaslanır ?» (8 *səh-54*).

R.Robertson qloballa lokal arasında olan qarşılıqlı əlaqəni qlobal cəmiyyətin sistemyaradıcı amili kimi xarakterizə edir. Qloballaşma ilə «qlobal sahə» arasında fərq olmalıdır. Tədqiqatçı müxtəlif növ qarşılıqlı təsir və dəyişikliklərin baş verdiyi yeganə sosial dünyanı qlobal sahə adlandırır. Qloballaşma isə vahid qlobal sahənin yaranmasını şərtləndirən amildir, lakin o, qlobal sahənin yeganə, komponenti deyil. Robertsona görə, «qloballaşma yalnız strukturlar, institutlar və ya şəbəkələrlə bağlı olmayıb, bizim sosial həyat və oradakı yerimiz haqqında düşüncə tərzimizlə də bağlıdır .

Qloballaşmanı çoxaspektli hadisələr kimi qiymətləndirən tədqiqatçı B.Badi onun 3 ölçüsünü göstərir:

1. Qloballaşma - davam edən tarixi proses kimi;
2. Qloballaşma - dünyanın hegemonlaşması və universallaşması;
3. Qloballaşma - milli sərhədlərin dağılması kimi (9 *səh-5*).

Qloballaşma tərəfdarları onu insan cəmiyyətinin bütün sferalarını əhatə edən geniş və çoxplanlı proses kimi qəbul edirlər. Birincisi, onlar hesab edirlər ki, qloballaşma iqtisadi özünüinkişafdan irəli gəlir; ikincisi, qloballaşma əmtəə, kapital və informasiyanın sərbəst axınına imkan verməklə inkişaf və insan rifahı üçün daha yaxşı şərait yaradır (*UNDP Human Development Reportu, 1997, New York, p.82*).

Üçüncüsü, qloballaşma faktiki olaraq, inkişafın bir variantlığına gətirib çıxaran vahid dünya sosial-iqtisadi quruluşunun formalaşmasına imkan verir («Dünya sonu» nəzəriyyəsi).

Dördüncüsü, mədəniyyətin beynəlxalq səviyyədə genişlənməsi, ən azı iqtisadi proses qədər vacibdir (*World Commision on Culturr and Development, Paris, 1995, p.186*).

K.Rouli (London şəhər Universiteti) və D.Bensona (Melburn Universiteti) görə, dövlətlərin iqtisadi, siyasi, sosial sərhədlərinin dağılması qloballaşmanın əsas xarakteristikasıdır. Dyur Universitetinin professoru Q.Cereffiyə görə, qlobal proseslərin əsas fərqi «fəaliyyətin müxtəlif növlərinin beynəlxalq miqyasda funksional inteqrasiya və koordinasiyasıdır.

Qloballaşma haqqında mövcud olan fikir və yanaşmalar fonunda Ə.Tağıyev qloballaşmanın bir hərəkat olaraq XX əsrdən başladığını və bəşəriyyətin bütün inkişaf sahələrini əhatə edir. Onun fikrincə, qloballaşma ilk növbədə qlobal şəkildə düşünməyi və fikirləşməyi tələb edir. Bu bəzilərinin iddia etdikləri kimi heç də kiçik dövlətlərin və xalqların daha böyük dövlətlər və xalqlar tərəfindən udulması prosesi deyil, əksinə, onların imkanlarının bərabərləşdirilməsi prosesidir (10 *səh-173*)

Qloballaşmanı çox vaxt dövlətlərin qarşılıqlı fəaliyyət və qarşılıqlı asılılıq proseslərinin kəskin şəkildə güclənməsi ilə müşayiət olunan, dünya inkişafının müasir mərhələsi kimi qiymətləndirirlər. Amerikan tədqiqatçıları P.Nandi və Ş.Sahidullaya görə, qloballaşma - «...bəşəriyyət qarşısında prezidentsiz özünürealizə imkanları açan, prinsip etibarilə yeniartım və inkişaf prosesidir». V.Mixeyev isə yazır ki, qloballaşma «ölkələr və regionlar arasında iqtisadi və siyasi qarşılıqlı asılılığın inkişafının elə bir səviyyəsidir ki, vahid dünya hüquq sahəsinin və

dünya iqtisadi və siyasi idarəetmə orqanlarının yaradılması məsələsini qaldırmaq mümkün və zəruri olur» (11 *səh-66)*.

Qlobalistikada əsas məsələlərdən biri qloballaşmanın xarakterik xüsusiyyətləri və səviyyələrinin dəqiq müəyyənləşdirilməsidir. Qloballaşmanın əsas xüsusiyyətləri sadə formada aşağıdakı kimi qruplaşdırılır: a)milli dövlətlərin rol və funksiyalarının dəyişməsi; b)dövlətüstü və qeyridövlət faktorlarının rolunun genişlənməsi; c)qloballaşmanın daha çox dünya maliyyə bazarı və dünya informasiya məkanı sferasında baş verməsi.

Mahiyyət baxımından qloballaşmanın əsas xüsusiyyətləri bu cür ümumiləşdirilir:

– İnsanların həyat fəaliyyətinin müxtəlif sferalarında ölkələrin və xalqların artan (genişlənən) qarşılıqlı əlaqə və qarşılıqlı asılılığı kimi, bu isə perspektivdə və son nəticədə insanların planetar həmbirliyinin təsir edilməsi və bütöv dünyanın formalaşmasına aparıb çıxarır.

– Ümumdünya maliyyə iqtisadi məkanın, planetar miqyaslı bazarın yaranması, ayrı-ayrı iqtisadiyyatların hamı üçün ümumqaydaların fəaliyyət göstərdiyi qlobal sistemlə qovuşması;

– Yeni kompüter və media texnologiya, qlobal televiziya, Internet bazarı əsasında ümumdünya ünsiyyət şəbəkəsinin yaradılmasına aparan informasion inqilabı;

– Dövlətlərin funksiyalarının dəyişilməsi prosesi, milli sərhədlərin sökülməsi, dövlətüstü təşkilatların və transmilli birliklərin fəaliyyət miqyasının və rolunun əhəmiyyətli şəkildə güclənməsi;

– Dünyanın hegemonlaşması və universallaşması, avroatlantik sivilizasiya tərəfindən işlənmiş liberal demokratik və sosial mədəni dəyərlər sisteminin gündən-günə yayılması;

– Qlobalizmin ideologiya və siyasət forması, birqütblülük prinsipi üzərində yeni dünya düzənini formalaşdırmaq naminə obyektiv prosesləri subyektiv məqsədlər üçün istifadə etməyə cəhd göstərmək (12 *səh-354*).

Held qloballaşmanın 4 tipini qeyd edir:

Dərin qloballaşma. Qlobal strukturların geniş əhatəsi iqtisadiyyatdan başlamış mədəniyyətə qədər ictimai həyatın bütün sahə və aspektlərində yüksək intensivlik, yüksək sürət və yüksək qarşılıqlı təsir səviyyəsi ilə müşayiət olunur;

1. Diffuziyalı (dağınıq) qloballaşma. Yüksək intensivlik və yüksək sürət, lakin aşağı qarşılıqlı təsir səviyyəli yüksək ölçüyə uyğun qlobal strukturlara aid edilir;
2. Genişlənən qloballaşma. Aşağı intensivli, aşağı sürətli, lakin yüksək qarşılıqlı təsir səviyyəsinə uyğun qlobal qarşılıqlı yüksək ölçüsü ilə xarakterizə olunur.
3. Yüksək qloballaşma. Burada qlobal strukturların yüksək ölçü səviyyəsi yüksək intensivlik, sürət və qarşılıqlı təsir səviyyəsilə möhkəmləndirilmir.

Ümumiyyətlə, Held qeyd edir ki, qloballaşma bizim sübut etməyə çalışdığımız kimi unikal, xətti proses deyil. Onun tərkibinə siyasət, hərbi, iqtisadiyyat, mədəniyyət, miqrasiya və ekologiya kimi müxtəlif fəaliyyət və əməkdaşlıq sferalarının daxil olduğu fövqəladə differensiyalı hadisə kimi təsəvvür etmək daha yaxşı olardı (13 səh- 25;26;27*)*.

Qloballaşmanın inkişaf tendensiyası şərtlənir:

– informasiya texnologiyalarının geniş tətbiqi, vahid dünya rabitə sisteminin inkişafı ilə;

– beynəlxalq əmək bölgüsünün dərinləşməsi ilə;

–MDB və Şərqi Avropa ölkələrinin əksəriyyətində mərkəzləşdirilmiş planlaşdırma mexanizmlərinin dağılması ilə.
Ümumiyyətlə, qloballaşma 3 mənada başa düşülür:
– Birincisi, insanlar, dövlətlər və mədəniyyətlər arasında daimi gedən qarşılıqlı fəaliyyət məkanının genişlənməsi tarixi prosesi kimi;
– ikincisi, bircinsli siyasi-iqtisadi və mədəni dünyaya doğru tədrici hərəkətlə müşayiət olunan ümumilik və hegemonluq xüsusiyyətlərinin güclənməsi vasitəsilə dünyanın ümumi universallaşdırılması kimi;
– üçüncüsü, milli sərhədlərin iqtisadi qarşılıqlı fəaliyyət sferasının şəffaflığından açıq olması kimi (14 *səh- internet*)).

Ümumiyyətlə, sonda qeyd etmək lazımdır ki, qloballaşma haqqında Bartelsonun söylədiyi paradoks qismən öz qüvvəsini saxlamaqdadır. Bartelson qeyd edirdi ki, «qloballaşmanın hələ nə olduğu heç kimə aydın olmasa da, onun reallığına heç kim şübhə etmir (15 *səh-189)*. Bu isə o deməkdir ki, dünyada baş verən proseslər qloballaşmanın XXI əsrdə bəşəriyyətin inkişaf strategiyasının müəyyənləşdirici xətti olmasının əyani sübutudur.

### *ƏDƏBIYYAT*

1.Печчеи А. Человеческие качества. М., 1970, с.185;302).
2.Хелд Д., Гольдблат Д. Глобальные трансформации: Политика, экономика и культура. М., 2004, стр.2;576).
3.Шахрай С.М. Глобализация современном мире политико прововые аспекты. СПб: Фонд поддержки науки и образования в области правоохранительной деятельности. «Университет», 2004, с.6;168).
4.Делягин М. Мировой кризис. Общая теория глобализации». М., 2003, стр.48;768)
5.Иноземцев В.Л. «Глобализация: наивная мечта ХХ века. «Финансист», 2000, №5, стр.41;64).
6.Буянов В.С. Глобализация: сущность, истоки, неодномерность. «Безопасность Евро-зии», 2006, №3, стр.351;544).
7.Робертсон Р., Хондкер Х. Дискурсы о тобализации: предварительное размышления // Глобализация: контуры ХХЫ века. М., 2004, 41, стр.128;159).
8.Бауман З. Глобализация: последствия для человека и общества. М., 2004, стр.54;188).
9.Пантин В.И. Циклы и волны глобальной истории. Глобализация в историческом измерений. М., 2003, стр.5;276).
10.Tağıyev Ə. Siyasət dərsləri. Bakı, 2007, səh.173 ;237)
11.Михеев В. Логика глобализации и интересы России. «Про ет контра, 1999, т.4, №4, стр.66;210).
12.Буянов В.С. Глобализация: сушность, истоки, неодномерность // Безопасность Евразии. М., 2000, №3, стр.354;544).
13.Хелд Д., Гольдблат и др. Глобальные трансформации: политика, экономика и кульутар. 2004, стр.25,26, 27;576).
14.Черновский М.Ю. щттп: // консериатизм. нород.ру // политол // глобал доъ)).
15.Бартельсон И. Глобализация и столкновение идентичностей. М., 2003, стр.189;254).

ДЖАФАРОВ САМИР

## ПОНЯТИЕ И СМЫСЛ ГЛОБАЛИЗАЦИИ

Противостояние между глобалистами и антиглобалистами в современном мире, определение кто прав и кто не прав – это значить, что усвоить свойство глобалитического развитие мира. Все это зависит от того, что как мы имеем информации об всем глобализации. В статье системном порядке исследовано и изучено история понятие "глобализации", научно теоретические взгляды, свойство развитии и различие аспекты. В тоже время особое внимание в статье было уделено на то что, сущность глобализации составляет единый мир и идея глобального мирового единство. Противореченивние и парадоксальные моменты концепции, посвящинные глобализации было широко анализировано.

SAMIR JAFAROV

## THE MEANING OF GLOBALIZATION

Contrasting between globalist and anti- globalist in modern globalist who is right who is not and it means that it is mastering global improving in world. At depends on what information we have about scientifically and practical orientation about globalization. An article researching systematical order of historical, scientifically – theoretical, peculiarity of improving and different aspects of "globalization". At the same time, the special attention given to unit world and global ideas of globalization. An article analyzing contradictory of scientifically - theoretical moment of globalization.

***Rəyçilər: prof.Ə.Tağıyev, t.e.d.M.C.Qasımlı.***

***Gəncə Dövlət Universitetinin Sosial fənlər kafedrasının 14 may 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №06).***